Azərbaycan Badminton Federasiyasının “Təhsil” Respublika İdman Mərkəzinin (RİM) birgə təşkil etdiyi təlimlərdə “Təhsil” RİM-in Gəncə, Sumqayıt, Lənkəran filiallarının və Quba Rayon Uşaq-Gənclər İdman Məktəblərinin badminton bölmələrinin məşqçi-müəllimləri iştirak ediblər.

Badminton üzrə Azərbaycan yığma komandasının baş məşqçisi və məşqçiləri təlim iştirakçılarını məşq prosesinin elementləri ilə tanış edib, onlara qabaqcıl ölkələrin təcrübəsi, yeniliklər barədə ətraflı məlumat veriblər.